№ 31 (1026) 2-8 avqust 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İnsanlara dövlət qayğısının növbəti nümunəsi



Avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına məlumat verdi ki, nazirlik "ŞA İnşaatçı" Mənzil Tikinti Kooperativi tərəfindən inşa olunan binadan ümumilikdə 35 mənzili satın alıb. Bu mənzillərdən 23-ü Qarabağ müharibəsi əlillərinə, 12-si isə şəhid ailələrinə verilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Daimi qaz, su və işıqla təchiz edilən mənzillər yüksək səviyyədə təmir olunub, bütün zəruri avadanlıq, o cümlədən mətbəx mebeli quraşdırılıb. Bundan başqa, mənzillərdə kombi sistemi də qurulub.

Sonra dövlətimizin başçısı əlil və şəhid ailələrinin üzvləri ilə görüşdü.

Prezident İlham Əliyev mənzillərin sənədlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim etdi.

Ümumilikdə, 136 vətəndaşa "Khazar LX" avtomobili verildi. Onlardan 110-nu ərazi bütövlüyümüzün və müstəqilliyimizin müdafiəsi zamanı əlil olmuş şəxslər, 26-sı isə Böyük Vətən Müharibəsi və Çernobıl əlilləridir. "Khazar LX" avtomobilləri Neftçala Sənaye Parkında fəaliyyət göstərən "Azərmaş" MMC tərəfindən istehsal olunub. Sosial məsuliyyət prinsipləri çərçivəsində şirkət əlavə olaraq 3 avtomobil də təqdim etdi.

Prezident İlham Əliyev sosial cəhətdən qayğıya ehtiyacı olanların mənzil-məişət məsələlərinin həllini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının tapşırığı ilə bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Əlillərə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu istiqamətdə icra olunan layihələr nəticəsində həmin qəbildən olan minlərlə insanın sosial vəziyyəti gündən-günə daha da yaxşılaşır. Dövlətin bu sahədə gördüyü işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların problemlərinin həlli istiqamətində Fondun təşəbbüsü və dəstəyi ilə çox mühüm layihələr icra olunur.

Bu gün Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzil və avtomobillərin verilməsi də Prezident İlham Əliyevin bu kateqoriyadan olan insanlara göstərdiyi dövlət qayğısının növbəti nümunəsidir.

# İctimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edildi

Məlum olduğu kimi, müntəzəm avtobus marşrutları üzrə sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri sonuncu dəfə 2007-ci ilin 6 yanvar tarixində, metroda sərnişindaşıma xidmətinin tarifi isə 2011-ci ilin 24 noyabr tarixində təsdiq edilib.



Ötən müddət ərzində ictimai nəqliyyatda sərnişindaşıma xidməti üzrə xərclərin artması, avtobus parkının yenilənməsi və istismara saz vəziyyətdə saxlanılması üçün nəqliyyat vasitələrinin və ehtiyat hissələrinin xarici valyuta ilə idxal edilməsi, xidmət səviyyəsinin davamlı olaraq yüksəldilməsi, nağdsız ödəniş sisteminin tətbiqinin genişləndirilməsi, metro nəqliyyatı üzrə dövlət büdcəsindən asılılığın azaldılması və s. amillər nəzərə alınaraq, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "Bakı Metropoliteni" QSC, Bakı Nəqliyyat Agentliyi vasitəsilə "BakuBus" MMC və sərnişindaşıma xidmətlərini həyata keçirən bir sıra subyektlər tərəfindən sərnişindaşıma tariflərinə yenidən baxılması üçün Tarif (qiymət) Şurasına müraciətlər olunub. Qaldırılan məsələlər Tarif (qiymət) Şurasının Katibliyində kompleks şəkildə araşdırılaraq Şuranın iclasının gündəliyinə daxil edilib.

Tarif (qiymət) Şurasının iclasında müraciətlərə baxılıb və metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi 1 gediş üçün 30 qəpik, Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda sərnişindaşıma xidməti tarifinin yuxarı həddi müntəzəm şəhərdaxili avtobus marşrutları üzrə 1 gediş üçün 30 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə məsafədən asılı olaraq 1 gediş üçün 30-90 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik təsdiq edilib.

Bakı şəhərində ictimai nəqliyyatdan ödəniş vasitəsi kimi plastik və ya kağız kartdan istifadə edən sərnişinlərin nəzərinə çatdırılır ki, kartların balansından gediş haqqı üçün ödəniş 2018-ci ilin 31 iyul tarixinə qədər (31 iyul tarixi də daxil olmaqla) mövcud tariflə, 1 avqust tarixindən etibarən isə yeni tariflə tutulacaqdır.

İclasda iştirak edən Bakı Nəqliyyat Agentliyinin nümayəndələri tərəfindən sərnişinlərin məlumatlandırılması məqsədilə bildirilib ki, ictimai nəqliyyatdan məhdud istifadə üçün nəzərdə tutulan kağız kart sahibləri 1 avqust tarixindən əvvəl alınmış kağız kartın balansında qalan və istifadə oluna bilməyən məbləğə görə 1 avqust tarixindən etibarən "20 yanvar", "28 may", "Nəriman Nərimanov" və "Neftçilər" metro stansiyalarında fəaliyyət göstərən "Kart analiz mərkəzləri"nə yaxınlaşaraq qalıqdan istifadə etmək məqsədilə həmin məbləği artıra bilərlər.

Eyni zamanda məlumat üçün bildirilir ki, tarif dəyişikliyindən sonra da ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflər Azərbaycanda əksər MDB və region ölkələri ilə müqayisədə aşağı olacaqdır. Belə ki, hazırda metro ilə sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat, avtobusla müntəzəm şəhərdaxili sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,45 manat, Belarusda 0,44-0,52 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,91 manat, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə tarif isə Rusiyada 5,2-9,2 qəpik/km, Gürcüstanda 4,2-7,5 qəpik/km, Türkiyədə 4,9-8,0 qəpik/km təşkil edir.

Tarif (qiymət) Şurasının iclasında həmçinin, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi prosesinin davamı olaraq, dövlət qeydiyyatından yeni keçmiş 100-dən artıq dərman vasitəsinin qiymətləri təsdiq edilib.



# Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu ləğv edilsin.

2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs təsis edilsin.

3. "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

4. "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

5. Müəyyən edilsin ki:

5.1. Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 oktyabr tarixli 162 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"na uyğun olaraq göstərdiyi fəaliyyətdən irəli gələn hüquq və öhdəlikləri, o cümlədən güzəştli kreditlərdən istifadə şərtləri haqqında müvəkkil kredit təşkilatları ilə bağlanmış müqavilələr üzrə hüquqlar (müvafiq sənədlərin, məlumatların alınması və s.), verdiyi güzəştli kreditlərdən irəli gələn tələb hüququ, müvəkkil kredit təşkilatlarına müəyyən edilmiş limitlər üzrə vəsaitin ayrılmasına, eləcə də Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyələşdirilməsi barədə qərar qəbul edilmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinə güzəştli kredit ayrılmasına dair öhdəliklər Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsə (bundan sonra – Fond) keçir;

5.2. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 9 nəfərdən ibarət Müşahidə Şurası yaradılır;

5.3. Müşahidə Şurasının 5 (beş) üzvünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 4 (dörd) üzvünü isə aşağıdakı dövlət qurumları (hər qurumdan bir nəfər olmaqla) təyin edirlər:

5.3.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

5.3.2. Azərbaycan Respublikasının Vergilər Nazirliyi;

5.3.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

5.3.4. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası;

5.4. Müşahidə Şurasının sədri Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir;

5.5. Fondun fəaliyyətinə cari rəhbərliyi İdarə Heyəti həyata keçirir. İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsini, habelə səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsini Azərbaycan Respublikasının iqtisadiyyat naziri həyata keçirir;



5.6. Fondun nizamnamə fondu 1 094 254 581 (bir milyard doxsan dörd milyon iki yüz əlli dörd min beş yüz səksən bir) manatdır və ona verilmiş əmlakdan, habelə dövlət büdcəsindən ayrılan vəsaitdən formalaşır.

6. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

6.1. Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1. Fondun nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

6.1.2. Fondun yenidən təşkil və ləğv edilməsi;

6.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

6.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Fondun strukturunun, əməkhaqqı fondunun, işçilərinin say həddinin, əməyin ödənilməsi formalarının və miqdarının müəyyənləşdirilməsi;

6.2.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Fondun ştat cədvəlinin təsdiq edilməsi;

6.2.3. bu Fərmanın 6.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.3. Fondun vergi öhdəliklərindən azad edilməsi, habelə bu Fərmanın 4-cü hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq, ayrılmış güzəştli kreditlər üzrə müvəkkil kredit təşkilatlarının Fonda ödəyəcəyi bütün vəsaitin vergi öhdəliklərindən azad edilməsi ilə bağlı qanun layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.5. Fondun fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etsin, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun istifadəsində olan dövlət əmlakının inventarizasiyasını və qiymətləndirilməsini apararaq, həmin dövlət əmlakının Fondun istifadəsinə verilməsi ilə bağlı tədbirlər görsün;

7.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

8.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş təminatın həyata keçirilməsi məqsədi ilə dövlət qulluğuna xitam verilmiş şəxslərin, öz razılığı əsasında, Fondun ştat cədvəlinin təsdiq edildiyi gündən 10 iş günü müddətində Fondda analoji vakant vəzifəyə təyin edilməsini təmin etsin;

8.2. dövlət qulluğuna xitam verilmiş və Fondda analoji vakant vəzifədən imtina etmiş şəxslərin dövlət qulluğunda ehtiyat kadr kimi saxlanılmasını təmin etmək məqsədi ilə həmin şəxslər barədə məlumatları Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim etsin;

8.3. bu Fərmanın 8.1-ci və 8.2-ci bəndlərində nəzərdə tutulan şəxslər barədə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn məsələləri həll etsin;

8.4. Fondun dövlət qeydiyyatına alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

8.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Fondun dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

10. Bu Fərmanın 5.3–5.5-ci bəndlərinə müvafiq olaraq aidiyyəti dövlət qurumları bir ay müddətində Fondun Müşahidə Şurasının və İdarə Heyətinin üzvlərinin təyin olunmasını təmin etsinlər.

11. "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 oktyabr tarixli 162 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 775; 2011, №10, maddə 886;2013, № 8, maddə 904; 2014, № 6, maddə 645; 2016, № 8, maddə 1384, № 10, maddə 1631) 1-ci və 2-ci hissələri ləğv edilsin.

12. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 31 iyul 2018-ci il**

# Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Aşağıdakılar Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin (bundan sonra – Agentlik) tabeliyinə verilsin:

2.1. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi;

2.2. ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmanın 5.2-ci bəndinə uyğun olaraq məlumat aldığı gündən on gün müddətində Agentliyin tabeliyində ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilər barədə daxil olmuş iddia sənədlərinin ekspertizasını apararaq patent və şəhadətnamə verilməsi üçün ekspert rəyini hazırlayan, ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilərin ekspertizası sahəsində digər məsələləri qanunvericiliyə uyğun olaraq həyata keçirən, habelə müvafiq məlumatların dərci üçün tələb olunan sənədləri hazırlayan, patent müvəkkillərinin attestasiyasının aparılmasında müvafiq qaydada iştirak edən publik hüquqi şəxs statuslu "Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi"ni yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin nizamnamə fondunu 300 000 (üç yüz min), Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin nizamnamə fondunu isə 500 000 (beş yüz min) manat məbləğində müəyyən etsin;

3.5. bu Fərmanın 5.2-ci bəndinə uyğun olaraq məlumat aldığı gündən on gün müddətində Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddini təsdiq etsin;

3.6. Agentliyin strukturunu bir ay müddətində təsdiq etsin;

3.7. "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının 8.5-ci və 8.6-cı bəndlərinə uyğun olaraq Agentliyin balansına verilən dövlət əmlakının qiymətləndirilərək Agentliyin nizamnamə fondunda nəzərə alınması üçün müvafiq təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.8. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.9. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki:

4.1. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilir:

4.1.1. Azərbaycan Respublikasının Prezidentinə:

1. Agentliyin nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

2. icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və bu Fərmanın 4.4-cü bəndində nəzərdə tutulmuş səlahiyyətlərin həyata keçirilməsi;

3. Agentliyin yenidən təşkil və ləğv edilməsi;

4.1.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

1. bu Fərmanın 4.4-cü bəndində nəzərdə tutulmuş səlahiyyətlərin həyata keçirilməsi;

2. strukturunun və illik maliyyə hesabatlarının təsdiq edilməsi;

3. idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

4. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

4.1.3. Agentliyə:

1. inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

4.2. Agentliyin ilkin nizamnamə fondu 5 000 000 (beş milyon) manat təşkil edir;

4.3. Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirmək məqsədilə İdarə Heyəti yaradılır;

4.4. İdarə Heyətinin tərkibi üç nəfərdən – Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən digər iki üzvdən ibarətdir;

4.5. Agentliyin işçilərinin say həddi 69 ştat vahididir;

4.6. bu Fərmanın 3.3-cü bəndində nəzərdə tutulmuş publik hüquqi şəxsin nizamnaməsinin və strukturunun təsdiqini, icra orqanının yaradılmasını, onun səlahiyyətlərinin müəyyənləşdirilməsini və nizamnamə fondunun miqdarının müəyyən edilməsini, yenidən təşkil və ləğv edilməsini Azərbaycan Respublikasının Nazirlər Kabineti, təsisçinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən digər səlahiyyətlərini isə Agentlik həyata keçirir;

4.7. bu Fərmanın 3.4-cü və 4.2-ci bəndlərində nəzərdə tutulmuş vəsait Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin ilkin nizamnamə fondunda və Patent və Əmtəə Nişanları Mərkəzinin nizamnamə fondunda olan vəsait hesabına formalaşır;

4.8. Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və bu Fərmanın 3.3-cü bəndində nəzərdə tutulmuş publik hüquqi şəxsin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsindən maliyyələşdirilmir;

4.9. Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir;

4.10. Agentlik dövlət qeydiyyatına alındığı gündən "mərkəzi icra hakimiyyəti orqanının statusuna bərabər sayılan dövlət orqanı" hüquqi statusuna malik olmuş Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin normativ hüquqi aktlarına münasibətdə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 7.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyəti, Agentliyin təklifləri əsasında, Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

5. Agentlik:

5.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

5.2. dövlət qeydiyyatına alındığı gündən bir gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

5.3. bir ay müddətində Respublika Elmi-Texniki Kitabxanasının əsasnaməsini və strukturunu, həmçinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinin say həddini təsdiq etsin;

5.4. bu Fərmanın 3.3-cü bəndində nəzərdə tutulmuş publik hüquqi şəxs dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində onun işçilərinin say həddini təsdiq etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının (AzərbaycanRespublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 754) 6-cı hissəsi ləğv edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 iyul 2018-ci il**

# "Fitch" agentliyinin proqnozu ölkəmizin qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsinə zəmin yaradacaq

"Orta aylıq əməkhaqqı səviyyəsinə görə Azərbaycanın MDB məkanında ilk üçlüyə daxil olması müsbət məqamdır. Mövcud vəziyyət Azərbaycanda orta aylıq əməkhaqqının dollar ifadəsində MDB-nin əksər ölkələri ilə müqayisədə daha yüksək olduğundan xəbər verir. Eyni zamanda, Azərbaycanın MDB-də bu mövqeyi, xüsusilə, ötən il iqtisadiyyatın stabilləşməsi və bu il iqtisadi tempinin güclənməsi ilə bağlıdır".

Bu barədə iqtisadçı ekspert Vüqar Bayramov deyib.

İqtisadçı ekspert qeyd edib ki, ötən il iqtisadiyyatda stabilləşmə manatın məzənnəsinin stabilləşməsinə gətirib çıxardı və ötən ilin fevralından etibarən manat stabilliyini qoruyub saxladı. Bu da orta aylıq əməkhaqqıdakı artımların yalnız milli valyuta deyil, həm də dollar ifadəsində qorunub saxlanmasına imkan verdi. Çünki manatın məzənnəsindəki stabillik orta aylıq əməkhaqqının dollar ifadəsində də artımına gətirib çıxardı. Nəticə etibarilə, orta aylıq əməkhaqqında dollar ifadəsində artım müşahidə olundu ki, bu da Azərbaycanın mövqeyinin yaxşılaşması və orta aylıq əməkhaqqının həm də dollar ifadəsində yüksəlməsinə gətirib çıxardı. Güman olunur ki, növbəti illər üçün iqtisadi artım tempinin proqnozlaşdırılması orta aylıq əməkhaqqında artımın daha yüksək olacağından xəbər verir. Bu da növbəti illərdə Azərbaycanın bu konteksdən MDB məkanında mövqeyinin daha da yaxşılaşmasına gətirib çıxaracaq. Orta aylıq əməkhaqqının artması dövlət üçün prioritet məsələlərdəndir. Gələcək illərdə də orta aylıq əməkhaqqının artım tempinin qorunub saxlanması prioritet olaraq qalmaqdadır.

"Standard & Poor's" beynəlxalq reytinq agentliyinin hesabatında Azərbaycan iqtisadiyyatında növbəti dövrdə 3 faiz iqtisadi artımın proqnozlaşdırılması ölkəmizdə iqtisadi artım tempinin bu il daxil olmaqla gələcək




illərdə qorunub saxlanacağından xəbər verir. Bu il Azərbaycanda 2 faiz iqtisadi artım proqnozlaşdırılır. Növbəti illərdə Azərbaycanda daha sürətli iqtisadi artımın əldə ediləcəyi gözlənilir. O baxımdan "Standard & Poor's" tərəfindən yüksək iqtisadi artım tempinin proqnozlaşdırılması birmənalı şəkildə məhz Azərbaycanda aparılan islahatların iqtisadi artıma birbaşa təsirindən xəbər verir. Ötən il iqtisadi stabilliyin əldə edilməsi, bu ilin ilk yarısında Azərbaycanın bütün makroiqtisadi göstəricilərində artımın qeydə alınması, ümumi daxili məhsuldakı artım, qeyri-neft ÜDM-dəki artım tempi, xarici ticarət balansındakı 4,5 milyard dollarlıq müsbət saldo, strateji valyuta ehtiyatlarımızın 44 milyard dollara çatması nəticə etibarilə ölkəyə daxil olan valyutanın həcminin artmasından xəbər verir. Bu da, təbii ki, makroiqtisadi stabilliyin qorunub saxlanılması baxımından olduqca vacibdir. Makroiqtisadi stabilliyin qorunub saxlanılması həm də Azərbaycan üçün ÜDM-də artım tempinin qorunub saxlanılmasına, növbəti illərdə daha sürətli artımın əldə edilməsinə zəmin yaradır. Bu hesabatda, eləcə də ölkəmizdə növbəti illərdə 3 faizlik artımın proqnozlaşdırılması Azərbaycan üçün müsbət məqamdır və beynəlxalq şirkət tərəfindən ölkəmizdə iqtisadi artımın qiymətləndirilməsi kimi xarakterizə olunmalıdır.

"Fitch" beynəlxalq reytinq agentliyinin reytinqində Azərbaycanda sosial, siyasi stabilliyin uzunmüddətli dövrdə qorunub saxlanacağı bildirilir. Fitch agentliyi də dünyanın aparıcı kredit təşkilatlarındandır. Bu təşkilat tərəfindən ölkəmizdə həm bu il iqtisadi artımın proqnozlaşdırılması, həm də Azərbaycanın valyuta ehtiyatlarının məhz bu konteksdən növbəti illərdə artımının proqnozlaşdırılması və xüsusən Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi Azərbaycanın dövlət gəlirlərinə birbaşa təsir göstərən amillərdən hesab olunur.

Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycan illik olaraq 6 milyard kubmetrdən artıq mavi qazı Türkiyə bazarına, ilk mərhələdə 10 milyard kubmetr mavi qazı Avropaya, ikinci mərhələdə isə Avropaya 20 milyard kubmetrdən çox qaz nəql edəcək. İkinci mərhələdə Azərbaycan tərəfindən Avropa bazarına illik 31 milyard kubmetrə yaxın mavi qaz nəql ediləcək. Bu da dövlət gəlirlərinin və ölkəyə daxil olan valyutanın həcminin artırılması baxımından çox vacibdir.

"Fitch" agentliyinin hesabatı növbəti dövrlərdə ölkəmizdə stabilliyin qorunub saxlanılmasından xəbər verir. Bu da ölkəmizin kredit reytinqinə və bütövlükdə ölkəmizin qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsinə zəmin yaradacaq.

# Altı ayda "Azexport.az" portalına daxil olan ixrac sifarişləri 47,6 faiz artıb

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) departament rəhbəri Ramil Hüseyn deyib.

İİTKM-nin "İxrac İcmalı"nın iyul sayı təqdim olunub. İcmalın bu sayında göstərilir ki, 2018-ci ilin yanvar-iyun ayları ərzində qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon ABŞ dolları təşkil edib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 110,5 milyon ABŞ dolları və ya 15 faiz artıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin ilk 6 ayı ərzində Rusiyaya 319,9 milyon, Türkiyəyə 180,1 milyon, Gürcüstana 74,1 milyon, İsveçrəyə 69,3 milyon və Çinə 23,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

R.Hüseyn qeyd edib ki, ilin birinci yarısında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (140 milyon ABŞ dolları) liderliyini qoruyub.

Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 60,7 milyon ABŞ dolları) ikinci və elektrik enerjisi (54,6 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2018-ci ilin ilk altı ayı ərzində meyvə-tərəvəz ixracı 276,7 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 71,8 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 69,7 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 37,8 milyon, kimya sənayesi məhsullarının ixracı 30,7 milyon, pambıq ipliyi ixracı 9,9 milyon ABŞ dolları təşkil edib.

2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ilk yarısında elektrik enerjisinin ixracı 2,2 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixra-



cı 24,4 faiz, pambıq ipliyinin ixracı 23,3 faiz, meyvə-tərəvəzin ixracı 20,3 faiz, plastmas və onlardan hazırlanan məmulatların ixracı 13,7 faiz, kimya sənayesi məhsullarının ixracı 4,4 faiz artıb.

Cari ilin iyun ayında qeyri-neft sektoru üzrə ixrac 179 milyon ABŞ dolları təşkil edib. 2018-ci ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında ilk beşlikdə Rusiya (96,7 milyon ABŞ dolları), Türkiyə (25,9 milyon ABŞ dolları), İsveçrə (12,8 milyon ABŞ dolları), Gürcüstan (8,1 milyon ABŞ dolları) və Niderland (5,8 milyon ABŞ dolları) qərarlaşıb.

2018-ci ilin may ayında olduğu kimi, iyun ayında da qeyri-neft sektoru üzrə ixracda tomat dəyəri ilə birinci olub.

"İxrac İcmalı"nın iyul sayında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi də verilib. 2018-ci ilin yanvar - iyun aylarında qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin siyahısında ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycandakı nümayəndəliyi, "Kapitan Fruits" MMC, "Baku Steel Company" MMC, "Food Export Şəmkir" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Azfruittrade" MMC, "Şirin Aqro" QSC, "Sun Food" MMC, İskəndərov Sahib Səməd oğlu təmsil olunub.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə SOCAR-ın "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir.

"Yanvar-iyun aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 19 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib.

Cari ilin ilk 6 ayında "Azərkosmos" ASC peyk və telekommunikasiya xidmətlərinin ixracından 12,7 milyon ABŞ dolları məbləğində gəlir əldə edib. "Azərkosmos" ASC-nin 2018-ci ilin ilk 6 ayı ərzində xidmət ixracını həyata keçirdiyi əsas ölkələr Fransa, Malayziya, BƏƏ, Almaniya, Gürcüstan və digərləridir", - deyə departament rəhbəri vurğulayıb.

Eyni zamanda, "İxrac İcmalı"nda məlumat verilib ki, 2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana dünyanın 189 ölkəsindən 1325,0 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. 2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 620,4 milyon manat təşkil edib. Yəni, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 113 milyon AZN və ya 22,3 faiz artıb.

2018-ci ilin iyun ayında isə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatları 106,7 milyon manat təşkil edib və ötən ilin iyun ayı ilə müqayisədə 27,3 faiz artıb.

## Azərbaycan ilə İran arasında nəqliyyat və telekommunikasiya sahələrində əməkdaşlıq müzakirə olunub

İran İslam Respublikasının Tehran şəhərində keçirilən 24-cü Beynəlxalq Elektronika, Kompüter və Elektron Ticarət (ELECOMP) sərgisində ölkəmizi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Nazirlikdən bildirilib ki, sərgidə müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları şirkətləri iştirak edib. Bir sıra yerli İKT şirkətləri ölkəmizə məxsus milli pavilyonda öz məhsul və həllərini nümayiş etdirib.



İrana səfəri çərçivəsində nazir Ramin Quluzadə İran İslam Respublikasının Prezident Aparatının rəhbəri Mahmud Vaezi, yollar və şəhərsalma naziri Abbas Əhməd Axundi və informasiya-kommunikasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ilə görüşlər keçirib.

Prezident Aparatının rəhbəri Mahmud Vaezi ilə görüşdə sərhədyanı ərazilərdə mobil şəbəkələrin, radio və televiziyaların birgə radiomonitorinqi, qanunsuz trafikin ötürülməsinin qarşısının alınması sahəsində əməkdaşlıq, yayım kanallarının koordinasiyası, interferensiya hallarının qarşısının alınması məqsədilə tezlik resurslarının koordinasiyası məsələləri müzakirə olunub. Qərara gəlinib ki, bu sahədə əməkdaşlıq üçün birgə komissiya yaradılsın.

İran İslam Respublikasının yollar və şəhərsalma naziri ilə keçirilən görüşdə beynəlxalq daşımalarda İran ilə sərhəd-keçid məntəqələrində mövcud çətinliklərin aradan qaldırılması, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi istiqamətində beynəlxalq daşımaların artırılması kimi məsələlər müzakirə olunub.

İranın informasiya-kommunikasiya texnologiyaları naziri ilə görüşdə telekommunikasiya, poçt, startap layihələrinin və startap ekosisteminin inkişaf etdirilməsi sahəsində təcrübə mübadiləsi və s. məsələlər müzakirə mövzusu olub. Müzakirələr çərçivəsində İran şirkətləri "BakuTel-2018" beynəlxalq sərgi-konfransına dəvət olunub.

## Bakı Limanı Strateji Yol Xəritəsində müəyyən edilmiş tədbirləri tam icra edib

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin icra vəziyyətinin monitorinq və qiymətləndirilməsində Bakı Limanı əsas icraçı qurumlar arasında öhdəliyində olan tədbirləri tam həyata keçirib.

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən məlumat verilib.

Bildirilib ki, Strateji Yol Xəritəsinin 2017-ci il üzrə nəzərdə tutulan hissəsinin 86 faizinin icrası tamamlanıb, 12 faizi qismən icra edilib və 2 faizi isə icra edilməyib. Azərbaycan üzərində ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması işlərinin 30 faizi, tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi üçün aparılan işlərin 93 faizi, logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi üzrə isə işlərin 33 faizi tamamlanıb. 100 ballıq sistemlə dəyərləndirilən əsas icraçı qurumların performansı cədvəlində Bakı Limanı məsul olduğu 6 tədbiri uğurla başa vuraraq 100 balla dəyərləndirilib.

# İqtisadi inkişaf Azərbaycanda orta aylıq əməkhaqqının daha yüksək olması üçün potensial yaradacaq



Bu barədə Milli Məclisin deputatı, iqtisadçı ekspert Tahir Mirkişili deyib.
T.Mirkişili qeyd edib ki, Azərbaycan MDB ölkələri arasında orta aylıq əməkhaqqının səviyyəsinə görə devalvasiyadan öncəki 2014-cü ildə də 558 dollar əməkhaqqı ilə 4-cü yerdə qərarlaşmışdı. Keçən 3 il ərzində MDB ölkələrində baş verən devalvasiyalar bütün MDB məkanında orta aylıq əməkhaqqının dollar ekvivalentində səviyyəsini azaltdı. Belə ki, Rusiyada orta aylıq əməkhaqqı 2014-cü ildəki 896 dollardan 670 dollara, Qazaxıstanda isə 686 dollardan 459 dollara endi. Əsas səbəb isə bu ölkələrdə baş verən devalvasiyalar nəticəsində dollarla hesablanan məbləğlərin kiçilməsi oldu.
"Azərbaycan iqtisadiyyatı artıq davamlı olaraq müsbət dinamika nümayiş etdirir. Qeyri-neft sektorunun payı durmadan artır və artıq 65 faizə yaxındır. Sənaye və kənd təsərrüfatı istehsalı sürətlə artır, ixracın həcmi böyüyür, xidmət sektorunun payı artır. Ölkə prezidentinin Sərəncamı ilə hər il əməkhaqlarının və pensiyaların artımı da ölkədə ümumi orta aylıq əməkhaqqının artırılmasına təsir etməkdədir. Ümumilikdə, Azərbaycanda iqtisadi inkişaf ölkədə orta aylıq əməkhaqqının daha da yüksək olması üçün yetərincə potensial yaradacaq", - deyə iqtisadçı ekspert diqqətə çatdırıb.

# Prezident İlham Əliyev dövlət aqrar inkişaf mərkəzlərinin yaradılması barədə fərman imzalayıb

Fərmana görə, Kənd Təsərrüfatı Nazirliyinin yerli bölmələrinin vahid idarəçiliyinin təmin edilməsi və koordinasiyasının səmərəli təşkili, aqrar sahədə xidmətyönlü fəaliyyətin qurulması, fermerlərlə işin gücləndirilməsi, elektron xidmətlər və innovativ texnologiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi, kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin istiqamətləndirilməsi məqsədi ilə Nazirliyin rayon və şəhər idarələri əsasında dövlət aqrar inkişaf mərkəzləri yaradılır.
Kənd Təsərrüfatı Nazirliyi dövlət aqrar inkişaf mərkəzlərinin əsasnaməsini təsdiq etməli, onların fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi ilə bağlı müvafiq sistemin qurulmasını təmin etməlidir.

# "Sumqayıt Kimya Sənaye Parkı"nda logistik mərkəzin tikintisinə başlanılacaq”

Bu barədə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov deyib.
O bildirib ki, parkın 10 hektarlıq ərazisində logistik mərkəzin yaradılması üçün



layihə həyata keçirilir. Burada şimal və cənub istiqamətlərdə dəmir yolu xətti mövcuddur. Logistik mərkəzin yaradılması rezidentlərin ixrac və idxal əməliyyatlarına müsbət təsirini göstərəcək.

# Yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon dollar olub

Yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon ABŞ dolları olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac 110,5 milyon dollar və ya 15 faiz artıb.
AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ramil Hüseyn deyib.
Qeyd edilib ki, ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (140 milyon dollar) liderliyini qoruyub. İkinci yerdə qızıl, üçüncü yerdə isə elektrik enerjisi qərarlaşıb.
Təkcə iyun ayında qeyri-neft sektoru üzrə ixrac 179 milyon dollar təşkil edib. İyunda qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan və Niderlanddır. İyunda da ixracda tomat (pomidor) dəyəri ilə birinci olub (43,2 milyon dollar).

# "AtaBank" ASC şimalda yeni Samur şöbəsini istifadəyə verdi

"AtaBank" ASC Qusar rayonunun ərazisində yerləşən yeni "Samur" şöbəsini müştərilərinin xidmətinə verib. Samur sərhəd-keçid məntəqəsinin yaxınlığında yerləşən şöbə həm fiziki, həm də hüquqi şəxslərə bütün bank xidmətlərini təklif edir. Müştərilər yeni açılan şöbəyə yaxınlaşaraq təcili pul köçürmələri, hesablaşma-kassa, valyuta mübadilə əməliyyatları, kommunal xidmətlərin ödənişlərini həyata keçirməklə yanaşı, əmanət yerləşdirə, biznesin inkişafı üzrə məsləhətlər ala bilərlər.
AtaBank ASC-nin İdarə Heyəti sədrinin birinci müavini Etibar Babaşlı şöbə ilə bağlı qeyd edib ki: “AtaBank üçün strateji əhəmiyyət kəsb edən Samur şöbəsinin məhz bu bölgədə açılmasının məqsədi ölkəmizin vətəndaşları ilə yanaşı, xarici qonaqlara da xidmət göstərməkdir. AtaBank hər zaman müştərilərinin rahatlığına önəm verir və bu şöbənin açılması ilə bankımız ölkəmizə qonaq gələn və ölkəmizdən xaricə gedən həmvətənlərimizə uzağa getmədən, əlavə vaxt sərf etmədən bank xidmətlərini sürətli və rahat apara bilmələri üçün hər bir şəraiti yaradıb.”
1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100 faiz yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.
"AtaBank" ASC-nin xidmət və məhsulları haqqında daha ətraflı öyrənmək istəyən şəxslər 136 çağrı mərkəzinə zəng vura və ya bankın internet səhifəsini ziyarət edə bilərlər - www.atabank.com




# Gömrük rəsmiləşdirilməsi prosedurları sadələşdiriləcək

Sənaye parklarında idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurları sadələşdiriləcək.
İyulun 31-də İqtisadiyyat Nazirliyinin və Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə "Sənaye parklarında idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi – "Yaşıl Dəhliz" mövzusunda "dəyirmi masa" keçirilib.
İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi, sənayenin inkişafı və rəqabət qabiliyyətinin yüksəldilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması tədbirləri barədə ətraflı məlumat verib. Vurğulanıb ki, sənaye sahəsində biznes fəaliyyətinin dəstəklənməsi və istehsal sahəsində məşğulluğun artırılması məqsədilə sənaye parkları və sənaye məhəllələri yaradılır, sahibkarların səmərəli fəaliyyəti üçün zəruri infrastruktur qurulur, güzəştli rejim tətbiq olunur. Bildirilib ki, sənaye parklarının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən və gömrük rüsumundan azaddır. Niyazi Səfərov qeyd edib ki, sənaye parklarında rezidentlərin idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi məqsədilə İqtisadiyyat Nazirliyi ilə Dövlət Gömrük Komitəsi zəruri işlərin təşkilinə başlayıb.
Dövlət Gömrük Komitəsinin idarə rəisi Səməd Qaralov gömrük sistemində



aparılan təkmilləşdirmə işləri barədə məlumat verərək, gömrük infrastrukturunun gücləndirildiyini və gömrük prosedurlarının sadələşdirildiyini qeyd edib," Yaşıl Dəhliz"in idxal-ixrac əməliyyatlarının sadələşdirilməsində və sahibkarların vaxtına qənaət edilməsində önəmini diqqətə çatdırıb.
Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Nadir Adilov kiçik və orta sahibkarların fəaliyyətinin əlaqələndirilməsi və sahibkarlığın inkişafının stimullaşdırılması istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verərək, KOS-lara göstərilən xidmətlərin bir məkanda – "Kiçik və Orta Sahibkarlıq Evi"ndə birləşdiriləcəyini qeyd edib.
"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov sənaye parklarında rezidentlər üçün yaradılmış əlverişli şərait, müasir infrastruktur barədə məlumat verib. O, "Yaşıl Dəhliz"in tətbiqinin sahibkarların sənaye parklarına marağını daha da artıracağını qeyd edib.
Tədbirdə "Yaşıl Dəhliz Xidməti" layihəsinin təqdimatı keçirilib və layihənin üstünlükləri barədə məlumat verilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.
Sonda "Sumqayıt Kimya Sənaye Parkı" MMC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "Təmiz Şəhər" ASC və "Yaşıl Dəhliz Xidməti" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.

# AtaBank-dan yeni kommunikasiya kanalı!

AtaBank müştərilərinin rahatlığını düşünərək, yeni WhatsApp kommunikasiya kanalını istifadə üçün təqdim edib.
Artıq WhatsApp istifadəçiləri birbaşa AtaBanka müraciət edərək, istənilən məlumatı operativ əldə edə bilərlər.
Bunun üçün yalnız AtaBank-ın WhatsApp əlavəsinə bağlı olan 050 99 99 136 telefon nömrəsinə yazmaq kifayətdir.
Müasir dövrümüzdə insanlar zamanlarına qənaət etmək üçün ən asan və ən rahat vasitələrdən istifadə etməyə üstünlük verirlər və bu məqsədlə AtaBank müştərilərinə hər zaman online müraciət edə bilmələri üçün müxtəlif imkanlar yaradır.
Hazırda müştərilər banka həm sosial şəbəkələr, həm də yeni istifadəyə verilmiş WhatsApp kanalından istifadə edərək müraciət edə bilərlər. Bankın əməkdaşları istənilən kommunikasiya kanalından daxil olan müraciətləri cəmi bir neçə saniyə ərzində cavablandıraraq, müştərilərə vaxtında köməklik göstərməyə hər zaman hazırdırlar.
"AtaBank" xidmət və məhsulları haqqında daha ətraflı öyrənmək istəyən şəxslər 136 çağrı mərkəzinə zəng vura və ya bankın internet səhifəsini ziyarət edə bilərlər - www.atabank.com



"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100


C.Hacıbəyli

(əvvəli ötən sayımızda)

1949-cu ildə Ankarada "Azərbaycan Kültür Dərnəyi" təsis edildi. 1952-ci il aprelin 1-dən dərnəyin "Azərbaycan" adlı aylıq jurnalı nəşrə başladı. Elə həmin tarixdən də Münxendə Azərbaycan və rus dillərində Milli Birliyin orqanı "Azərbaycan" jurnalı çıxmağa başladı. 50-ci illərdə Azərbaycan Kültür Dərnəyi 11 kitab nəşr etmişdir. M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gelenekləri" (Ankara, 1949), "Çağdaş Azərbaycan ədəbiyyatı" (Ankara, 1950), "M.F.Axundzadənin həyatı və əsərləri" (Ankara, 1950), "Nizami" (Ankara, 1951), "Azərbaycan dram ədəbiyyatı" (Ankara), "Sabirin Azərbaycan ədəbiyyatındakı yeri" (Ankara), "Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifin yaradıcılığı" (Ankara, 1952), Mirzə Balanın "Azərbaycan tarixində türk Albaniya" (Ankara, 1951), Kərim Odərin "Azərbaycan iqtisadiyyatı" (Ankara, 1952), Almas İldırımın "Seçilmiş şeirlər"i (Ankara, 1953), Ə.Cəfəroğlunun "Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri" (Ankara, 1953) əsərləri həmin dövrün məhsuludur. Ötən əsrin 60-70-ci illəri Azərbaycan mühacirəti, xüsusilə mühacirət mətbuatı tarixində süstlük və durğunluq dövrü kimi səciyyələndirilir. 70-ci illərin sonu - 80-ci illərin əvvəllərində mühacirlərin fəaliyyətində nisbətən canlanma yarandı. 1979-80 illərdə İran İslam inqilabından sonra hakimiyyətə gələn rejimin siyasəti yüz minlərlə azərbaycanlını ölkədən didərgin saldı. 1985-86-cı illərdə SSRİ-də başlanan aşkarlıq və yenidənqurma siyasəti imperiyanı süquta aparan milli azadlıq hərəkatının başlanmasına səbəb oldu. Şovinist ermənilərin Dağlıq Qarabağdakı seperatçılıq fəaliyyəti və onların azərbaycanlılara qarşı ağlasığmaz vəhşilikləri ölkə daxilində olduğu kimi, xaricdəki azərbaycanlılarda da kəskin etiraz və qəzəb doğurdu. Mühacir nəşrlərin başlıca mövzusu Azərbaycanın azadlığı, ərazi bütövlüyü və eyni zamanda, erməni vəhşiliyinin ifşası idi.

1978-90 illər ərzində yalnız "Azərbaycan Kültür Dərnəyi"nin xətti ilə 30-a yaxın kitab, bir neçə risalə çap edildi. Cemender Arslanoğlu və dr. İsmayıl Kayabalının "Azərbaycan türkləri kültür tarixinin ana xətləri" (Ankara, 1978), "Türk milli kültürü"(Ankara, 1981), "Bolqar türkləri" (Ankara 1985), Cemender Arslanoğlunun "Cənub-Qərbi Qafqaz hökuməti Müvəqqəti Milliyəsi"(Ankara, 1986) və s., Əhməd Qaracanın "Azərbaycanın yaxın tarixinə qısa bir baxış" (Ankara, 1982), dr. A.Baycanın "Könül sazından"(Ankara, 1983), "Dağ çiçəkləri" (Ankara, 1987), Şükrü Kaya Səfəroğlu və Adnan Mədərrisoğlunun "Türk dövlətləri tarixi" (Ankara, 1986), dr. Orxan Türkdoğanın "Doğu Anadolunun sosial yapısı" (Ankara, 1987), İshak Süngüroğlunun "Harput yollarında" - Seçmələr (Ankara, 1987), dr.Ənvər Konukçunun "Koroğlu"ya qədər Bingöl" (Ankara, 1987), Cəmil Ünalın "Türk və islam aləmində Azərbaycanın yeri" (Ankara, 1987), Sədi Bayramın "Güney Doğu Anadoluda prototürk izləri" (Ankara, 1988), dr. Ədhəm Ruhi Fığlalın "Atatürk və din"(Ankara, 1988), dr.Əbdürrəhman Güzəl və Kaya Səfəroğlunun "Atatürk və milli birlik" (Ankara, 1988), Yılmaz Öztunayın "XX yüzilliyin son çerəyində Şərq məsələsi"(Ankara, 1989), Məlahət Altunbayın "Hürriyətə uçan türk" (Ankara, 1989), dr.Mehmet Sarayın "Qiyafət və layiqlik" (Ankara, 1989) əsərləri, habelə üç hissədən ibarət "Azərbaycan türk ədəbiyyatı tarixində abidə şəxsiyyətlər" (Ankara, 1987), "Dağlıq Qarabağ xəyallar və gerçəklər" (Ankara, 1989) və s. kitablar Azərbaycan mühacirlərinin fəaliyyət dairəsinin genişliyinə dəlalət edir. Nağı Keykurun (Şeyxzamanlı) "İstiqlal mücadiləsi xatirələri" (İstanbul, 1969), Hüseyn Baykaranın "Azərbaycan yeniləşmə hərəkatları XIX yüz il" (Ankara, 1966), "Azərbaycan istiqlal mücadiləsi tarixi" (Ankara, 1975), "İran inqilabı və azadlıq hərəkatları" (İstanbul, 1978), Kərim Odərin "Azərbaycan", Taha Akyolun "Azərbaycan Sovetlər və ötəsi" (İstanbul, 1990), Əhməd Mehribaninin tərtib etdiyi "Dağlıq Qarabağ: tarixi sənədlər" (Fransa, 1989) və digər kitablar da diqqəti cəlb edir.


Məhəmməd Hadi

Azərbaycanın öz müstəqilliyini yenidən bərpa etmək uğrunda mübarizə apardığı illər - 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində mühacirət mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoydu. Həmin dövrdə və müstəqilliyin ilk illərində "Azərbaycan" (Ankara) jurnalı ölkədə gedən ictimai-siyasi prosesləri, xüsusilə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələri diqqətlə izləyir və dərhal reaksiya verirdi. Türkiyədə ("Azərbaycan türkləri", "Xəzər", İstanbul, 1990), İsveçdə ("Araz", Lund, 1991; "Azərbaycan", Stokholm), Böyük Britaniyada ("Aydınlıq", 1988, London; "Odlar ölkəsi", 1988, Edinburq), Almaniyada ("Azər", 1990, Berlin; "Ana dili", 1984, Bonn; "Savalan", 1967, Berlin, "Ərk", 1975), İspaniyada ("Dədə Qorqud", 1988, Madrid), Belçikada ("Qürbət", 1984, Brüssel; "Odlu vətən", 1992, Brüssel), habelə keçmiş SSRİ məkanında - Rusiya Federasiyasında ("Azərros", "Azərbaycan XXI əsr", "Millətin səsi", "Azərbaycan diasporu", "Asudə vaxt", Moskva; "Azərbaycan media", İvanovo; "Azərbaycan", Yekaterinburq; "Bizim qəzet", Kemerovo; "Yurd", Saratov; "İnam", Sankt-Peterburq; "Azərbaycan", Vladivostok; "Dərbənd", Dərbənd), Estoniyada ("Ocaq, Tallin"), Ukraynada ("Savalan", Dnepropetrovsk; "Exo Azerbaydjana", "Qolos Azerbaydjana", Kiyev; "Millət", Simferopol), Moldovada ("Araz", Kişinyov) nəşr edilən qəzet və jurnallar mühacirət mətbuatı tarixində müəyyən iz qoymuşdur.

# AZƏRBAYCAN MÜHACİRƏT MƏTBUATI



# "Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri" mövzusunda birgə müsabiqənin nəticələri açıqlanıb

İyulun 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkil etdikləri "Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında keçirilən tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, Fondun icraçı direktoru Vüqar Səfərli, nazirliyin məsul vəzifəli əməkdaşları, ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan mədəniyyət naziri Əbülfəs Qarayev media nümayəndələrini Milli Mətbuatın yaranmasının 143-cü ildönümü münasibətilə təbrik edib, onlara yaradıcı fəaliyyətlərində uğurlar arzulayıb. Milli mətbuatın zəngin tarixi inkişaf yolu keçdiyini deyən Əbülfəs Qarayev şərti olaraq "dördüncü hakimiyyət" adlandırılan medianın hazırda ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynadığını, milli maraq və mənafelərin qorunmasında, azərbaycançılıq məfkurəsinin inkişafında mühüm xidmətlərinin olduğunu vurğulayıb.

Nazir respublikamızın hazırkı sürətli inkişaf mərhələsində ölkə jurnalistlərinin üzərlərinə düşən şərəfli missiyanın öhdəsindən layiqincə gəldiklərini, müxtəlif sahələrdə əldə olunmuş uğurların və mövcud problemlərin ictimaiyyətə çatdırılmasında vətəndaş mövqeyi nümayiş etdirdiklərini vurğulayıb.

Son illər respublikamızda mədəni sahədə müasirləşməyə xidmət edən kompleks islahatların həyata keçirildiyini deyən Əbülfəs Qarayev Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə kino sənayesinin də inkişaf yolunda olduğunu vurğulayıb. Mədəniyyət naziri Azərbaycan kinosunun 120 illiyinin qeyd olunması ilə bağlı dövlətimizin başçısı cənab İlham Əliyevin imzaladığı sərəncamı xatırladaraq deyib:

"Azərbaycan kinosu böyük tarixə malikdir. Bu illər ərzində ölkəmizin, xalqımızın həyatının müxtəlif sahələrinə aid filmlər çəkilib. Təxminən son on ildə dövlət büdcəsindən ayrılmış vəsait hesabına 46 tammetrajlı bədii, 50 qısametrajlı bədii, 212 sənədli, habelə 23 cizgi filmi çəkilib. Bu gün gənclərimiz Türkiyə, Kanada, Rusiya kimi ölkələrdə kino sahəsi üzrə təhsil alırlar. Eyni zamanda, Azərbaycan müxtəlif ölkələrdə keçirilən film festivallarında iştirak edir. 2014-2017-ci illər ərzində 26 filmimiz 48 ölkədə keçirilən 128 festivalda 219 dəfə iştirak edərək 49 mükafat qazanıb".

Nazir Azərbaycan kinosunun 120-ci ildönümü ərəfəsində kino sənətinin dünəni, bu günü və gələcək inkişaf perspektivlərinin obyektiv araşdırılması və ictimaiyyətə dolğun şəkildə çatdırılması baxımından Fondla birgə keçirilən müsabiqənin əhəmiyyətindən söz açaraq, yekun nəticələr barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.




Tədbir iştirakçılarını salamlayan Vüqar Səfərli son illər Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın mədəni həyatının bütün sahələrində müasirləşmə və inkişafın qabarıq duyulduğunu vurğulayıb. Azərbaycan kino sənətinin ötən 120 ildə zəngin tarixi inkişaf yolu keçdiyini deyən icraçı direktor bu sahəyə göstərilən dövlət qayğısının uğurlu nəticələr verdiyini vurğulayıb.

Vüqar Səfərli bununla üçüncü dəfədir ki, Fondun Mədəniyyət Nazirliyi ilə birgə yazı müsabiqəsi təşkil etdiyini, bu müsabiqələrin jurnalistlərin peşəkarlığının yüksəldilməsi, sosial vəziyyətinin yaxşılaşdırılması və yaradıcı əməyinin stimullaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkib.

İcraçı direktor Azərbaycan kinosunun 120 illiyi ərəfəsinə təsadüf edən "Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri" mövzusunda birgə müsabiqəyə 31 kütləvi informasiya vasitəsindən 44 yazının təqdim edildiyini diqqətə çatdırıb. İcraçı direktor bildirib ki, müsabiqənin ekspertlər tərəfindən qiymətləndirilmiş yekun nəticələrinə əsasən, 6 nəfər əsas, 6 nəfər həvəsləndirici mükafatlara layiq görülüb: "Müsabiqənin şərtlərinə əsasən, I yer üçün 1 nəfər olmaqla 1000, II yer üçün 2 nəfər olmaqla 800, III yer üçün 3 nəfər olmaqla 600 manat mükafatın verilməsi nəzərdə tutulur. Bundan əlavə, 6 nəfər yazı müəllifinə 300 manat məbləğində pul mükafatı veriləcək".

Tədbirdə çıxış edən "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, "Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camal, "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz birgə müsabiqənin Azərbaycanın kinosunun tarixinin və hazırkı inkişaf meyillərinin təbliği baxımından əhəmiyyətini vurğulayıb, habelə mövcud əməkdaşlığın genişləndirilməsi zəruriliyini qeyd ediblər.

Vüqar Səfərli fərdi jurnalist yazıları müsabiqəsinin təşkilinə verdiyi dəstəyə, habelə media və mərkəzi icra hakimiyyəti orqanları arasında əməkdaşlığın genişləndirilməsində fəal roluna görə nazirliyin rəhbərliyinə təşəkkürünü bildirib.

Tədbiri yekunlaşdıran mədəniyyət naziri Əbülfəs Qarayev birgə müsabiqənin təşkilinə və KİV-lə əməkdaşlığın genişləndirilməsindəki xidmətlərinə görə Fondun rəhbərliyinə minnətdarlığını bildirərək, belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

# Faiz dəhlizinin parametrləri haqqında



Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti 1 avqust 2018-ci il tarixində uçot dərəcəsinin 10% səviyyəsində və faiz dəhlizinin digər parametrlərinin (±2%-lik kənarlaşma ilə aşağı hədd 8%, yuxarı hədd 12%) dəyişməz saxlanılması barədə qərar qəbul etmişdir.

2018-ci ilin ötən dövründə inflyasiya hədəf dəhlizindən aşağı olmaqla azalma trendini saxlamış, tədiyə balansı profisitli olmuş, iqtisadi aktivlik üzrə müsbət dinamika qorunmuşdur.

Qısa və ortamüddətli dövrdə həm xarici sektordan, həm də fiskal siyasətdən gələn inflyasiya riskləri potensialı monetar şəraitin yumşaldılması imkanlarını məhdudlaşdırır.

Qərar qəbul edərkən İdarə Heyəti aşağıdakıları nəzərə almışdır.

**İnflyasiya prosesləri.** İnflyasiya azalma trendini saxlayır. 2018-ci ilin 6 ayında orta illik inflyasiya 3% təşkil etməklə elan edilmiş hədəf dəhlizindən aşağıda qərarlaşmışdır.

İnflyasiya səviyyəsinin aşağı düşməsini manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, pul təklifinin optimal səviyyədə idarə olunması, inflyasiya gözləntilərinin azalması və mövsümi faktorlar şərtləndirir. Bütün bunlar dünya əmtəə qiymətlərinin, o cümlədən dünya ərzaq qiymətlərinin və ticarət tərəfdaşı olan ölkələrdə inflyasiya proseslərinin daxili inflyasiyaya artırıcı təsirini qismən neytrallaşdırır.

Cari ildə Azərbaycandakı inflyasiya ticarət tərəfdaşı olan ölkələrdəki orta inflyasiyadan əhəmiyyətli aşağı olmuşdur ki, bu da manatın real effektiv məzənnəsinə azaldıcı təsir göstərmişdir. Manatın qeyri-neft sektoru üzrə real effektiv məzənnəsi 2018-ci ilin I yarısında cəmi 1,2% möhkəmlənmişdir. 2014-cü ilin sonundan bəri isə manatın real effektiv məzənnəsi 35,4% ucuzlaşmışdır ki, bu da qeyri-neft sektorunun rəqabət qabiliyyətini dəstəkləmişdir.

**İnflyasiya üzrə gözləntilər və proqnozlar.** Ev təsərrüfatları və real sektor müəssisələri arasında aparılmış monitorinqlər inflyasiya gözləntilərinin son illər üzrə minimum səviyyədə qaldığını göstərir.

Son makroiqtisadi proqnozlar göstərir ki, 2018-ci ilin sonuna inflyasiyanın hədəf intervalında qalması risklər balansındakı dinamikadan asılı olacaqdır. İdxalın əhəmiyyətli artımı, tərəfdaş ölkələrdə yüksək məzənnə və qiymət volatilliyi və fiskal genişlənmə inflyasiyanın tələb və təklif amillərini aktivləşdirə bilər. İnflyasiya hədəfinə nail olunması həm də qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin qiymət dəyişimindən asılı olacaqdır.

**Xarici şərait.** Qeyri-neft iqtisadiyyatının ixrac potensialının yüksəlməsi və dünya bazarında əlverişli neft qiymətləri xarici sektor göstəricilərinin yaxşılaşması ilə müşayiət olunur. 2018-ci ilin birinci yarısında ticarət balansının müsbət saldosu 2,2 dəfə, ixrac 64%, qeyri-neft ixracı 14% artmışdır. Ticarət balansı ilə yanaşı, xidmət ixracı və pul baratları daxilolmaları da pozitiv dinamikanı qoruyur. Xarici sektor göstəricilərinin yaxşılaşması şəraitində ölkənin strateji valyuta ehtiyatları artmaqda davam etmişdir.

Son proqnozlar göstərir ki, 2018-ci ilin sonuna tədiyə balansı profisitli qalacaqdır. Neftin qiyməti 70 ABŞ dollarından yüksək formalaşmışdır və ilin sonuna onun dinamikası müsbət proqnozlaşdırılır.

Qısa və ortamüddətli dövrə isə tədiyə balansı üçün təhdid başlıca olaraq idxalın yüksək templə genişlənməsi, kapital və maliyyənin hərəkəti hesabının defisitinin artmasıdır.

**İqtisadi aktivlik.** İqtisadi aktivliyin artım dinamikası müsbət olaraq qalır. 2018-ci ilin yanvar-iyun aylarında iqtisadi artım 1,3% olmuş, o cümlədən qeyri-neft sektorunda 2%-lik artım baş vermişdir. İqtisadi artımı dəstəkləyən başlıca amillərə xarici tələbin və dövlət investisiyalarının artması, əhalinin real gəlirlərinin yüksəlməsi şəraitində istehlakçı inamı göstəricilərinin yaxşılaşması aiddir.

Mərkəzi Bank tərəfindən real sektorun monitorinqinə əsaslanan Biznes İnam İndeksinin dinamikası da iqtisadi aktivliyin yüksəldiyini təsdiq edir. İqtisadi artım qeyri-neft sektorunun başlıca sahələrində qeydə alınmışdır.

İqtisadi artım qeyri-neft sənayesində 11,1%, kənd təsərrüfatında 7,6% təşkil etmişdir. İqtisadi artım potensial səviyyəsini üstələmədiyindən inflyasiyaya artırıcı təsir göstərmir.

**Monetar şərait.** 2018-ci ilin ötən dövründə monetar şərait neytral səviyyəyə yaxınlaşmaq istiqamətində dəyişmiş, pul bazası genişlənmiş, uçot dərəcəsi aşağı salınmışdır.

İlin sonuna və ortamüddətli dövrə monetar şəraitin normallaşdırılması potensialı inflyasiya risklərini və gözləntilərini formalaşdıran xarici və daxili amillərin reallaşması ehtimalından asılı olacaqdır.

Faiz dəhlizinin parametrləri Mərkəzi Bankın İdarə Heyətində növbəti dəfə 2018-ci ilin oktyabr ayında müzakirə ediləcəkdir.

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# GÖYGÖL RAYONU TURİZM SAHƏSİNDƏ GÜCLÜ POTENSİALA MALİKDİR

Turizm dünyada ən çox gəlir gətirən sahələrdən biri sayılır. Bu həm də ölkənin qlobal müstəvidə tanınması, sayılıb-seçilməsi baxımından önəmlidir. Azərbaycanda da bu sahəyə böyük diqqət yetirilir, özəl bölmənin strukturunda onun çəkisi ilbəil artır. Buna həm də respublikamızın təbii-coğrafi şəraiti, yerləşmə mövqeyi, zəngin milli-mənəvi dəyərləri təkan verir. Son illər bölgələrdə turist qəbul etmək üçün çoxlu sayda müasir tipli otellər, istirahət mərkəzləri, turizm kompleksləri tikilib istifadəyə verilmişdir.

«Azərbaycan 2025-ci ilədək həm regionda, həm də dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcək…»

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 dekabr tarixli fərmanı ilə təsdiqlənən «Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair strateji Yol Xəritəsi»ndə öz əksini tapmışdır. Bu Yol Xəritəsi Azərbaycanda turizm sektorunun inkişafı ilə bağlı bir çox yenilikləri önə çəkir.

Buraya turizm obyektlərinin modernləşdirilməsindən, viza rejiminin sadələşdirilməsindən tutmuş, turizmin bütün növ və istiqamətlərini özündə ehtiva edən kompleks məsələlər daxildir. Bütün bunlar yaxın gələcəkdə bu sahənin inkişafına intəhasız perspektivlər açacaq.

Respublikamızın əsrarəngiz, dilbər guşələrindən biri də Göygöl rayonudur. Ulu Gəncənin bir addımlığında yerləşən axarlı-baxarlı məkanlar yayın bu qızmar günlərində qonaqlı-qaralıdır. Toğanlıya, Çaykəndə, Çənlibelə, Ay işığına, Üçbulağa, dağlar ilahəsi Göygölə istirahət üçün üz tutanların sayı artıb.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, ilin bu çağında Göygöl rayonuna istirahətə gələnlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. Bu, hər şeydən öncə, rayonun ayrı-ayrı istirahət məkanlarında yaradılan rahat və müasir şəraitlə bağlıdır. Göygöl rayonundan başlanan geniş asfalt yol Toğanlıya qədər uzanıb gedir. İstirahət mərkəzləri bu yol boyunca sıralanır. Hər istirahət mərkəzini ötüb keçdikcə bir izdiham və qələbəliyin şahidi olursan. Son günlər havalar olduqca isti keçdiyindən insanlar axın-axın dağlara, meşələrə, buz bulaqların üstünə üz tuturlar. Belə istirahət məkanlarından biri Toğanlı kəndində yerləşən «Cənnət məkan» istirahət mərkəzidir. Buralar, sözün əsl mənasında, cənnətdir desək, heç də yanılmarıq. İstirahət mərkəzi meşə massivində salınıb, burada büllur kimi bərq vuran dağ çayı axır. Ərazi boyu zövqlə qurulmuş katejlər, müxtəlif əyləncə və oyun mərkəzləri bir-birini əvəz edir.

İnsan əli füsunkar təbiətin üstünə sığal çəkərək, bu gözəllikləri bir az da zənginləşdirib, tamamlayıb. Ağaclar, bulaqlar, çiçəklər, çəmənlər bir-biri ilə sanki bəhsə girərək, buraya gələnlərə xoş ovqat, unudulmaz anlar bəxş edir.

İstirahət mərkəzi 2003-cü ildən fəaliyyət göstərir, 166 yerlikdir. Ötən il buraya istirahətə gələnlərin sayı 3 mini ötüb keçmişdir. Necə deyərlər, bir dəfə buraya üz tutdunsa, mütləq təkrar dönəcəksən. Turistlərin coğrafiyası da genişdir. Bakı, Gəncə, Sumqayıt şəhərlərindən, həmçinin aran bölgələrindən gələnlər çoxluq təşkil edirlər. Son illər «Cənnət məkan»a xarici ölkələrdən, o cümlədən Ərəb ölkələrindən, Rusiyadan, Ukraynadan, Pribaltika ölkələrindən də qonaqlar gəlir. Azad sahibkarlığa yaradılan münbit şərait istirahət mərkəzini daha da genişləndirməyə imkan verəcək.

«Ağrıdağ» ailəvi istirahət kompleksi də bölgənin sayılıb-seçilən turizm məkanlarından sayılır. Burada eyni vaxtda 85 nəfər istirahət edə bilir. Ötən il kompleksdə istirahət edənlərin sayı 1600 nəfərdən çox olmuşdur. Bugünkü vəziyyət onu deməyə əsas verir ki, cari mövsümdə turistlərin sayı xeyli artacaq. Burada ən çox Rusiya Federasiyasından gələn soydaşlarımıza rast gəldik. Onlar dedilər ki, bu yerlər insanı məftun edir. Sanki sehrli bir aləmə düşürsən, ağuşundan çıxa bilmirsən. Həm özün dincəlirsən, həm də ruhun dincəlir. Qonaqlar bir istəklərini də dilə gətirdilər. Dedilər ki, Toğanlıya qədər yol yaxşıdır, qalan məsafədə yol təmir olunarsa, gəliş-gediş asanlaşar. Həm də ki, yol da bu gözəlliklərə layiq olmalıdır, axı!



Göygöl rayonunda gözəl və nümunəvi istirahət məkanlarından biri də «Sevimli məkan»dır. Artıq 4-cü ildir ki, fəaliyyət göstərir. Kompleksdə dedilər ki, hazırda burada 45 nəfər dincəlir. Ən çox qonaq Bakıdandır. Digər bölgələrdən gələnlər də var. Müraciət edənlərin sayı çoxdur. Yerlər məhdud olduğuna görə qəbul edə bilmirlər. Burada da genişləndirmə və yenidənqurma işlərinin aparılmasına ehtiyac duyulur. Bakıdan gələn bir qrup qonaqla görüşüb söhbətləşdik. Dedilər ki, əvvəlcə fikirləşdik ki, iki gün burada qalıb başqa yerə gedərik. Ancaq indi qərara almışıq ki, axıracan burada qalıb istirahətimizi davam etdirək. Dağlar, meşələr, bulaqlar, güllər, çiçəklər öz yerində, xidmət personalının qonaqpərvərliyi, xoş rəftarı bizi çox razı salır. Qiymətlərdən də narazılığımız yoxdur.

Göygöl, həm də kənd turizmi üçün əlverişli bir məkandır. Rayonda elə bir kənd, qəsəbə, yaşayış məntəqəsi tapmaq olmaz ki, qonaqlı-qaralı olmasın. Özü də ki, ilin bütün fəsillərində ən çox turist qəbul edən kəndlər bunlardır: Yeni Zod, Aşıqlı, Toğanlı, Topalhəsənli, Üçbulaq, Çaykənd, Mixaylovka, Şəhriyar… Kənd turizminin, ekoturizmin, dağ turizminin inkişafı bir çox vacib amillərlə bağlıdır. Başqa sözlə desək, turist marşrutu keçən yaşayış məntəqələrində müasir infrastruktur yaradılmalı, işıq, qaz, içməli su, yol və digər zəruri problemlər öz həllini tapmalıdır.

Bütün bunlar yoxdursa, dağlar, meşələr, bulaqlar, çəmənliklər nə qədər füsunkar olsalar da, insanları özünə cəlb edə bilməz. Müasir turizmə baxış köklü şəkildə dəyişməlidir. Turizmin həm formasında, həm də mahiyyətində yeni keyfiyyət meyarları önə çıxıb, onun daxili strukturunda diversifikasiya prosesləri dərinləşib. Gərək zamanla ayaqlaşa biləsən. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, son illər Göygöl rayonunun sosial-iqtisadi həyatında ciddi dəyişikliklər baş verib, rayonun siması inanılmaz dərəcədə gözəlləşib, müasirləşib. Rayonun ərazisindən keçən Bakı-Qazax magistral yolunun 353-cü kilometrindən Çaylı-Pənahlılar-Dozular kəndarası avtomobil yolunun inşası artıq başa çatmışdır. Yolun uzunluğu 18 kilometr olmaqla 3 yaşayış məntəqəsini əhatə edir. Bundan başqa, Göygöl şəhəri-Xanlar qəsəbəsi-Aşıqlı-Hacıkənd-Mixaylovka-Yeni Zod-Toğanlı-Göygöl avtomobil yolu təxminən 24 min əhalinin yaşadığı 7 yaşayış məntəqəsini, Göygöl Milli Parkını birləşdirir. Uzunluğu 38 kilometr olan bu yolda işlər sürətlə davam etdirilir.

Elektrik enerjisi, qaz, içməli su, rabitə və başqa sahələrdə də ardıcıl və sistemli işlər görülmüş, yerli əhalinin və qonaqların rahatlığını təmin edən zəruri tədbirlər həyata keçirilmişdir. Adı mahnılarda və nəğmələrdə vəsf olunan durna gözlü Göygölə sanki ikinci həyat bəxş edilib. Uzun müddət insanlar buraya həsrət qalmışdılar. Artıq bir neçə ildir ki, Milli Park kimi öz qapılarını ziyarətçilərin üzünə açıb. Dünyada elə bir azərbaycanlı tapmaq çətindir ki, Göygöldə olmaq istəyində bulunmasın. Göygöl, Maraq göl, Azərbaycan xalqının sirli-sehrli tarixini yaşadan canlı tablodur, gözəllik ilahəsidir. Onun yaranışı da ilahidən gəlib. 1139-cu ildə Gəncədə baş verən dağıdıcı zəlzələdən sonra yaranıb…

Yuxarıda deyilənlərdən nəticə çıxararaq, belə qənaətə gəlmək olar ki, ölkəmizin turizm sahəsində potensialı böyükdür və bu imkanları hərəkətə gətirmək üçün bir sıra zəruri addımlar atılmalıdır. Dövlət tərəfindən azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafına hər cür şərait yaradılıb. Bunun nəticəsində müsbət meyillər özünü göstərir. Lakin hər şeyi dövlətin üstünə atmaq düzgün yanaşma deyil. İqtisadi sistem bazar prinsipləri əsasında qurulub. Burada hər şey sahibkarlıq subyektlərinin ixtiyarına buraxılıb. Yeni ideya və təşəbbüslər bilavasitə onlar tərəfindən gəlməlidir. Dövlət kreditləşmə, maliyyə təminatı məsələlərində dəstəyini nümayiş etdirməlidir və bütün bunları edir. Lakin açığını demək lazımdır ki, turizm sahəsində, xüsusilə də bölgə turizmində yeni tipli sahibkarlıq zümrəsinin formalaşması prosesi ləng gedir. Bəzi yerlərdə qiymətlər reallığı əks etdirmir, bu isə turistləri narazı salır. Turizm assosiasiyalarının fəaliyyəti o qədər də nəzərə çarpmır. Bir də ki, bizdə hər şey daxili turizm üçün hesablanıb. Bu da lazımdır, yeni iş yerləri açılır, əhalinin güzəranı yaxşılaşır. Ancaq nəzərə almaq lazımdır ki, ölkə iqtisadiyyatının möhkəmləndirilməsi üçün xarici turizm inkişaf etdirilməlidir. Belə ki, valyutanın ölkə daxilində dolaşması ilə ölkəyə xaricdən valyuta gətirilməsi bir-biri ilə fərqli məsələdir. Odur ki, ikinci tendensiya turizm biznesində üstün mövqeyə çıxarılmalıdır.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# БТК окажет положительное влияние на создание новых транспортных маршрутов



Железная дорога Баку-Тбилиси-Карс (БТК) окажет положительное влияние на создание новых транспортных маршрутов между регионами Центральной Азии, Каспия и Черного моря, сказал в интервью Trend посол Румынии в Азербайджане Дан Янку, передает Day.Az со ссылкой на Trend.

"Важно подчеркнуть, что Румыния и Азербайджан разделяют общие интересы, когда речь идет о проектах, имеющих стратегическое значение, таких как транспортный коридор Восток-Запад", - сказал дипломат.

Янку отметил, что железная дорога Баку-Тбилиси-Карс имеет первостепенное значение не только для Азербайджана, но и для региона: это важнейшая часть коридора Восток-Запад и является важным вкладом в укрепление региональной связи.

"БТК окажет положительное влияние на создание новых транспортных маршрутов между регионами Центральной Азии, Каспия и Черного моря, что также актуально и для Румынии. В целях улучшение транспортных связей между этими регионами Румыния предложила разработать Каспийско-Черноморский транспортный коридор, который в основном представляет собой расширение коридора Восток-Запад через Черное море", - сказал он.

Отметим, что открытие железной дороги Баку-Тбилиси-Карс состоялось 30 октября 2017 года в Бакинском международном морском торговом порту.

Железная дорога БТК построена на основе азербайджано-грузино-турецкого межгосударственного соглашения. На начальном этапе объем грузоперевозок будет находиться на уровне 6,5 миллиона тонн грузов, а также будет перевозиться до одного миллиона пассажиров.

Восток-Запад, или Транскаспийский международный транспортный маршрут (ТМТМ) предназначен для роста грузоперевозок как из Китая в Турция и страны Евросоюза, так и в обратном направлении. Управление и развитие данного транспортного маршрута осуществляется консорциумом, созданным странами-участницами - это Китайские железные дороги (в Китае), KTZ Экспресс (в Казахстане), Каспийское морское пароходство (на Каспии), ADY Экспресс (в Азербайджане) и Trans Qafqasus Terminals (в Грузии).

# Pertamina пригласила SOCAR участвовать в модернизации НПЗ в Индонезии

Государственная нефтегазовая компания Индонезии Pertamina пригласила азербайджанскую госкомпанию SOCAR и японскую JX Nippon к партнерству по модернизации нефтеперерабатывающего завода в Баликпапане (Индонезия), сказал директор Pertamina Megaproject Эру Сетиаван, сообщает в среду Reuters.

«Pertamina могла бы владеть большинством долевого участия в этом проекте (51 процент)», - добавил он.

Ранее вице-президент по разведке и оценке дирекции по добыче Pertamina Эко Рукмоно сказал Trend, что компания приглашает SOCAR принять участие в разведочных работах в Индонезии.

По словам вице-президента, компании могли бы успешно сотрудничать в разведке нефти и газа на территории Индонезии.

"Индонезия обладает огромными запасами углеводородов. Так, предположительные запасы нефти составляют более 60 миллиардов баррелей нефти, а предположительные запасы газа оцениваются в 30 триллионов кубометров газа. В Индонезии имеются 48 нефтегазоносных бассейнов, где требуется провести геолого-разведочные работы. Опыт SOCAR может быть очень полезен для Pertamina, и мы приглашаем азербайджанскую компанию принять участие в геологоразведке в Индонезии", - сказал Рукмоно.

# Президент Ильхам Алиев учредил Фонд развития предпринимательства Азербайджана

Президент Азербайджана Ильхам Алиев подписал указ о совершенствовании механизма государственной поддержки развитию предпринимательства в Азербайджане.

Согласно указу, с целью совершенствования механизма поддержки развитию предпринимательства, создания новых промышленных, перерабатывающих и инфраструктурных предприятий в ненефтяном секторе, опирающихся на инновационные технологии, финансирования экспортных операций, ускорения инвестирования в реальный сектор и расширения возможностей выхода на финансовые ресурсы хозяйствующих субъектов, функционирующих в частном секторе, ликвидируется Национальный фонд поддержки предпринимательства.

В подчинении министерства экономики учреждается публичное юридическое лицо Фонд развития предпринимательства Азербайджанской Республики. Утверждаются Устав и Порядок использования средств Фонда.

Для общего руководства и осуществления контроля над работой Фонда создается Наблюдательный совет из девяти человек на основе деятельности на общественных началах. Пять членов Наблюдательного совета назначает министерство экономики, четверых членов – по одному от министерства финансов, министерства по налогам, министерства труда и социальной защиты населения и Палаты надзора за финансовыми рынками.

Председатель Наблюдательного совета назначается и освобождается от должности министром экономики.

Текущее руководство над работой Фонда осуществляет правление.

Назначение и освобождение с должности членов правления, а также досрочное прекращение их полномочий осуществляется министром экономики.

Уставный фонд Фонда составляет 1 094 254 581 манат, и формируется из выделенного ему имущества, а также средств, выделенных из государственного бюджета.

Осуществление полномочий учредителя Фонда поручается нижеследующим лицам.

Президент Азербайджана утверждает Устав Фонда, устанавливает размер Уставного фонда, реорганизует и упраздняет Фонд.

Министерство экономики, с согласования с Президентом Азербайджана, определяет структуру Фонда, фонд заработной платы, численность работников, формы и размеры оплаты труда, утверждает штатное расписание Фонда в пределах определенной структуры, фонда заработной платы и численности работников.

# Льготные кредиты для бизнеса в Азербайджане стали еще дешевле

В Азербайджане с шести до пяти процентов снижена годовая процентная ставка по льготным кредитам, выделяемым на поддержку предпринимательства в стране.

Это предусмотрено в "Порядке использования средств Фонда развития предпринимательства Азербайджана".

Президент Ильхам Алиев в среду подписал указ о совершенствовании механизма государственной поддержки развитию предпринимательства, который предусматривает создание данного Фонда. Одновременно ликвидируется Национальный фонд поддержки предпринимательства, действовавший с 1997 года принистерстве экономики страны.

Согласно порядку, годовая процентная ставка по кредитам Фонда составляет один процент, еще четыре процента - ставка уполномоченной кредитной организации. Минимальный размер льготного кредита, который может предоставить Фонд, составит пять тысяч манатов, а максимальный - 10 миллионов манатов.

При этом, отмечается, что малые кредиты (от пяти до пятидесяти тысяч манатов) будут выделяться на период до трех лет, средние кредиты (от 50 001 до одного миллиона манатов) - сроком на пять лет, крупные кредиты (от 1 000 001 до десяти миллионов манатов) - сроком до десяти лет.




# Азербайджана есть потенциал для улучшения своих международных рейтингов




Азербайджан продолжит работу над повышением своих международных рейтингов, заявил в среду на пресс-конференции председатель Центрального банка Азербайджана (ЦБА) Эльман Рустамов.

"Мы считаем, что международные рейтинговые агентства не совсем правильно и объективно оценивают реальное положение дел в национальной экономике страны. Но с другой стороны, хочу сказать, что у нас есть потенциал для продвижения в этих рейтингах, и мы должны использовать его", - сказал Рустамов.

По его словам, в этом направлении работы ведутся как со стороны Центрального банка, так и в правительстве.

"Считаем, что это послужит постепенному улучшению рейтинга Азербайджана и восстановлению его инвестиционного рейтинга", - добавил глава ЦБА.

Напомним, что в субботу два международных рейтинговых агентства - Fitch Ratings и Standard & Poor's - утвердили кредитные рейтинги Азербайджана. В отчетах обоих агентств отмечались позитивные изменения в экономике страны. В частности, S&P прогнозирует, что ВВП Азербайджана в среднем будет расти на три процента до 2022 года, а номинальный ВВП за тот же период вырастет с 79 до 93 миллиардов манатов.

Fitch подтвердило долгосрочный рейтинг дефолта эмитента (РДЭ) в иностранной валюте на уровне "ВВ+", а S&P сохранило долгосрочные и краткосрочные суверенные кредитные рейтинги Азербайджана в местной и иностранной валютах на уровне "ВВ+/В". Прогноз по рейтингам - стабильный.

# В Институте истории Академии наук создан Центр стратегического мышления



В соответствии с решением Ученого совета Института истории имени А.А.Бакиханова Национальной Академии наук Азербайджана (НАНА), в учреждении создан Центр стратегического мышления и концептуального исторического исследования. Новый центр определит приоритетные направления относительно места и роли Азербайджана в общемировой истории.

Как сообщили АЗЕРТАДЖ в отделе по связям с общественностью Института истории НАНА, Центр сосредоточится на исследованиях роли и места Азербайджана в тюрко-мусульманском мире, важности его стратегического географического положения. Благодаря этому центру история азербайджанского народа будет правильно пропагандироваться в зарубежных странах, в том числе в Турции и других тюркоязычных республиках.

Отметим, что между Институтом истории НАНА и Институтом стратегического мышления Турции в рамках международной научной конференции на тему «АДР: яркая страница истории государственности Азербайджана» подписано соглашение о взаимном сотрудничестве. Согласно документу, будут определены проблемы стратегического характера по истории Азербайджана, Турции и других тюрко-мусульманских республик, и в этих направлениях будут проведены совместные исследования.

В сентябре в Баку состоится международная научная конференция, организованная совместно с Институтом истории НАНА и Институтом стратегического мышления Турции. На форуме будут заслушаны доклады по истории тюркских народов Кавказа, Центральной Азии и Приволжья. В международной конференции примут участие всемирно известные историки. Это мероприятие будет первой конференцией, организованной Институтом истории НАНА совместно с Институтом стратегического мышления Турции.

# Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri açıqlanıb




İyulun 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və "Azərenerji" ASC-nin birgə təşkil etdikləri "Azərenerji ASC: tarixi inkişaf yolu və strateji hədəflərə doğru" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar. Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, "Azərenerji" ASC-nin prezidentinin müşaviri, AMEA-nın akademiki Arif Həşimov, Səhmdar Cəmiyyətin məsul vəzifəli şəxsləri, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan icraçı direktor Vüqar Səfərli Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 2009-cu ilin aprelində ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə yaradıldığını xatırladıb. İcraçı direktor Fondun ötən 9 ildə ölkədə fikir, söz və məlumat azadlıqlarının inkişaf etdirilməsinə, çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsinə, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, eləcə də sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən çoxsaylı layihələr həyata keçirdiyini bildirib.

Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. İcraçı direktor, həmçinin bildirib ki, "Azərenerji" ASC ilə birgə keçirilən müsabiqənin məqsədi Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi, mövcud resurslardan səmərəli istifadə olunması və elektrik enerjisinə artan tələbatın ödənilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi ilə əlaqədar reallaşdırılan tədbirlərin, habelə ölkənin sosial-iqtisadi inkişafında elektrik enerjisinin yeri və rolunun ictimaiyyətə obyektiv şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

İcraçı direktor, yekun nəticələrə əsasən, yazı müəlliflərindən 6 nəfərinin əsas, 10 nəfərinin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb. O, müsabiqəyə sənəd verən, lakin qaliblər sırasına düşməyən müsabiqə iştirakçılarının da diqqətdən kənarda qalmadığını, "Azərenerji" ASC-nin rəhbərliyi ilə əldə olunmuş razılığa əsasən, onların mükafatlandırılacağını bildirib.

Tədbirdə çıxış edən "Azərenerji" ASC-nin prezidentinin müşaviri, akademik Arif Həşimov media nümayəndələrini salamlayaraq, onlara yaradıcı fəaliyyətlərində uğurlar arzulayıb. O, Fondla birgə keçirilən müsabiqənin kütləvi informasiya vasitələri ilə "Azərenerji" ASC arasında qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Çıxışını davam etdirən Arif Həşimov Azərbaycanda energetika sisteminin tarixi, sovetlər birliyi dövründəki inkişaf yolu və müstəqillik illərində əldə etdiyi uğurlu nəticələrdən söz açıb. O, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə müstəqil enerji siyasətinin formalaşdırılması istiqamətində bütün zəruri tədbirlərin həyata keçirildiyini, bu sahənin inkişafının daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Tədbiri yekunlaşdıran icraçı direktor Vüqar Səfərli media ilə səmərəli əməkdaşlığa görə "Azərenerji" ASC-nin rəhbərliyinə təşəkkürünü bildirib və belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

# Məsafədən təhsil bu günün tələbidir



Azərbaycanda Milli Mətbuatın yaranmasının 143 illiyi ilə bağlı Türkiyənin Anadolu Universiteti Türkiyənin Azərbaycandakı Səfirliyinin və Azərbaycan-Türkiyə İş Adamları Birliyinin birgə təşkilatçılığı ilə tədbir keçirmişdir.

Tədbirdə Azərbaycanda rəsmi səfərdə olan Anadolu Dövlət Universitetin rektoru, professor Naci Gündoğan, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, Anadolu Universitetinin Azərbaycan Proqramları koordinatoru Azər Hətəmov, Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) başqanı Camal Yangın, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər Birliyi (TÜİB) başqanı Hüseyn Böyükfırat və Azərbaycan KİV-in bir qrup nümayəndələri iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan Anadolu Universiteti Azərbaycan Proqramları koordinatoru Azər Hətəmov tədbir iştirakçılarını salamlamış, Azərbaycan KİV nümayəndələrini onların peşə bayramları münasibətilə təbrik etmişdir. Sonra Azərbaycandan Türkiyənin Anadolu Universitetində məsafədən, distant (uzaktan eğitim) yolu ilə təhsil alan tələbələrə məsafəli təhsilin texniki bazasında göstərilən texniki xidmətlər haqqında məlumat verərək, onları bu sistemlə tanış etmişdir.

Anadolu Universitetinin rektoru professor Naci Gündoğan Anadolu Universiteti haqqında məlumat verərək bildirmişdir ki, Anadolu Universiteti 1958-ci ildən fəaliyyət göstərən, 60 illik tarixə malik dövlət universitetidir. 1982-ci ildən etibarən Türkiyə və xarici ölkələrdəki tələbələrinə uzaqdan təhsil verməkdədir. İndiyədək yalnız distant (məsafədən) təhsil alan 3 milyon məzunumuz olub, hazırda 1 milyona yaxın uzaqdan təhsil alan tələbəmiz var. Anadolu Universiteti olaraq dünyanın bir çox ölkəsindəki tələbələrə uzaqdan təhsilalma imkanı yaratdıqlarını, ancaq Türk dünyasına, özəlliklə də Azərbaycana bu sırada daha çox önəm verdiklərini qeyd edən rektor, 2009-cu ildən başlayaraq Azərbaycanda yaşayan Azərbaycan, Türkiyə və digər ölkə vətəndaşlarının da universitetdə uzaqdan təhsil yolu ilə (məsafədən) təhsil almaları üçün imkan və şərait yaradıldığını qeyd etdi.

Rektor, həmçinin məlumat verdi ki, Anadolu Universitetinin uzaqdan təhsil üzrə Türkiyədə və dünyanın heç bir ölkəsində, o cümlədən Azərbaycanda filialı mövcud deyil, çünki uzaqdan informasiya-kommunikasiya texnologiyaları vasitəsilə verilən bu təhsil formasında buna gərək yoxdur.

Bu təhsil ocağının bir sıra ali məktəblərlə əlaqələrindən danışan rektor qeyd etmişdir: "2011-2013-cü illər ərzində Anadolu Universiteti Azərbaycanın bir sıra nüfuzlu ali təhsil ocaqları ilə əməkdaşlığa başlamışdır. Anadolu Universiteti ilə Bakı Dövlət Universiteti, Azərbaycan Milli Aviasiya Akademiyası, Dövlət İdarəçilik Akademiyası, Bakı-Slavyan Universiteti, İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası arasında əməkdaşlığa dair protokollar imzalanıb və gələcəkdə bu əməkdaşlığın daha da inkişaf etdirilməsi nəzərdə tutulur.

"Türkiyə və Azərbaycan arasında dostluq əlaqələrindən də danışan rektor bildirmişdir ki, Türkiyə çətin vəziyyətdə olanda ilk Azərbaycandan dəstək aldı, Türkiyə də eyni dəstəyi verməyə hər zaman hazırdır. "Türkiyə ilə Azərbaycan doğrudan da bir millət, iki dövlətdir", - deyən rektor bunun yalnız sözdə deyil, həm də əməldə özünü göstərdiyini, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçildikdən sonra ilk rəsmi səfərini Azərbaycana etməsinin məhz bu dostluğa bariz nümunə olduğunu xüsusi vurğulamışdır.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral mətbuat nümayəndələrini bayram münasibətilə təbrik etmiş və bildirmişdir ki, Anadolu Universiteti Türkiyənin ən köklü, dünyada ən çox tələbəyə malik olan ali məktəblərindən biridir. Bu universitetin xidmətlərindən gənclərin daha çox yararlanması üçün səfirliyin də dəstək olduğunu qeyd edən səfir, bu tədris müəssisəsinin distant təhsil aparan nüfuzlu ali məktəb olduğunu, diplomlarının dünyada tanındığını və bu universitetin Türkiyənin və Azərbaycanın qanunlarına uyğun şəkildə fəaliyyət göstərdiyini vurğulamışdır.

Həmçinin, Türkiyə və Azərbaycan arasında münasibətlərin daim yüksələn xətlə inkişaf etdiyini bildirən səfir ikitərəfli əlaqələrimizdə təhsilin xüsusi yer tutduğunu vurğulayıb, bu istiqamətlərdə görülən işlərdən danışmışdır.

Sonra videokonfrans salonunda iştirakçılarla Əskişəhər Anadolu Universiteti studiyası arasında canlı bağlantı yaradılmışdır. Anadolu Universitetinin birinci prorektoru - Açıq tədris fakültəsinin dekanı professor Yücel Güney və Açıq tədris fakültəsinin dekan müavinləri interaktiv üsulla baş tutan görüş zamanı qonaqları salamlamış, Anadolu Universitetində uzaqdan təhsil (distant ) haqqında məlumat vermişlər.

Daha sonra çıxış edən ATİB İdarə Heyətinin sədri cənab Camal Yangın Azərbaycanın mətbuat nümayəndələrini bayram münasibətilə təbrik etmiş, ATİB olaraq bundan sonra da Anadolu Universitetinin uzaqdan təhsilə mümkün köməklik göstərəcəklərini bildirmişdir.

# "Uşaq Qaynar Xətt Xidməti"nin uşaqlara psixoloji və mənəvi dəstəyi davam edir




"Səninlə kobud rəftar edirlər? Narahatsan? Qorxursan? Onda problemini bizimlə bölüş!"

Bu çağırış "Azərbaycan Uşaq Qaynar Xətt Xidməti" tərəfindən bütün uşaqlara ünvanlanıb.

"Azərbaycan Uşaq Qaynar Xətt Xidməti" "Azercell Telekom" MMC-nin dəstəyi ilə fəaliyyətə başladığı ilk gündən minlərlə uşağa psixoloji və mənəvi dəstək göstərib. Xidmət artıq ölkəmizdə uşaqlar tərəfindən kifayət qədər etibar qazanıb. Məhz buna görədir ki, "Azərbaycan Uşaq Qaynar Xətt Xidməti"nə müraciət edən uşaqların sayı hər keçən gün artmaqdadır. Xidmət göstərdiyi 8 il ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə müxtəlif problemlərlə bağlı ölkənin bir çox şəhər və rayonlarından uşaqlar və gənclər, habelə valideynlər tərəfindən 32 000-dən artıq zəng daxil olub. Tək bu ilin ilk 6 ayı ərzində "Uşaq Qaynar Xətti"nə 1379 müraciət daxil olub. Bu zənglərdən 269-u psixoloji, 259-u hüquqi, 58-i səhiyyə, 65-i sosial, 650-si təhsil, 78-i digər problemlərlə bağlı olub. Daxil olan müraciətlərin 914-ü 18 yaşdan yuxarı, 465-i isə 18 yaşdan aşağı olan şəxslər tərəfindən edilib. 570 müraciət şəhərdaxili nömrədən, 792-si mobil nömrədən, 17-si sms və Facebook səhifəsi vasitəsilə daxil olub. "Azərbaycan Uşaq Qaynar Xətt Xidməti"nə ölkəmizdən kənarda yaşayan uşaqlar da müraciət edir ki, daxil olan zənglərin 65-i ölkə xaricindən qeydə alınıb.

Qaynar xətt hazırda saat 09:00-dan 18:00-dək fəaliyyət göstərir, bura həm şəhərdaxili, həm də Azercell nömrələrinə (012 480 22 80; 050/051 680 22 80) zənglə, habelə e-poçt xidməti (yardim@usaqxetti.az) və internet saytı (www.childhelpline.az) vasitəsilə müraciət etmək mümkündür.

Qeyd edək ki, xidmətin yaradılmasında məqsəd ailədə zorakılığa məruz qalan, həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlara dəstək olmaq, onlara problemlərinin həllinin tapılmasında, sosial mühitə uyğunlaşmalarına yardım etməkdir. 2017-ci ildə Azercell şirkətinin təşəbbüsü və dəstəyi ilə Qaynar Xətt xidmətinin İOS və Android əməliyyat sistemləri üçün nəzərdə tutulan mobil tətbiqləri də istifadəyə verilib. 2018-ci ilin iyun ayının 13-dən isə Xidmətin Göygöl ofisi fəaliyyətə başlayıb. Mərkəz yalnız Göygöl rayonu üçün deyil, eyni zamanda, yaxın ətraf rayonlarda (Goranboy, Gəncə, Şəmkir, Qazax, Aqstafa) yaşayan uşaqlara da xidmət göstərir.

# "Bakcell"dən"İnstagram" istifadəçiləri üçün maraqlı müsabiqə

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti sosial şəbəkələrdən aktiv istifadə edən abunəçiləri üçün maraqlı müsabiqə keçirib.

İyun ayının 27-də start götürmüş müsabiqədə iştirak etmək üçün "Bakcell"i "Instagram"da izləyən abunəçilər kreativ şəkil çəkərək, onu maraqlı stikerlərlə bəzəməli və üzərinə #BakcellileDaimOnline" heşteqi olan şəkili özünün "Instagram" profilindən açıq şəkildə paylaşmalı idilər. Müsabiqədə iştirak etmiş yüzlərlə abunəçidən əsas hədiyyənin qalibi və 2-ci yeri tutmuş 50 nəfər iştirakçı təsadüfi qaydada müəyyən edilib. 1-ci yerin qalibi "Bakcell"-dən Samsung Galaxy S9 smartfonu qazanıb. Digər qaliblər isə "28 Mall"da yerləşən "Cinemaplus" kinoteatrında eksklüziv təşkil olunmuş "Qarışqa adam və arı" filminin qapalı seansına dəvət olunublar.

Qeyd edək ki, müsabiqə Bakcell-in yeni "DaimOnline" tarifinin tanıdılması məqsədilə həyata keçirilib. Gənclərin daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verməsini nəzərə alaraq, Bakcell şirkəti bir müddət əvvəl yeni "DaimOnline" paketlərini təqdim edib. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz "WhatsApp", "Facebook" və "Instagram" istifadəsi ilə yanaşı, qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlana bilirlər.

Bakcell şirkətinin yeni "DaimOnline" tarifləri və digər sərfəli və innovativ təkliflər barədə daha ətraflı məlumat almaq üçün www.bakcell.comsəhifəsinə daxil olun.

**E L A N**

"Qafqaz Lizinq" ASC-nin səhmdarlarının nəzərinə!

16 sentyabr 2018-ci il tarixində saat 15.00-da "Qafqaz Lizinq" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN: 1501116941) Səhmdarlarının Ümumi Yığıncağının növbədənkənar iclası keçiriləcək. Ünvan: Bakı AZ1130, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 168B, məhəllə 3066. Telefon:(+994 12) 563 23 27. İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib. Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

**Dİzayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500